# Tarixi əhəmiyyət kəsb edən səfər

**Müstəqil siyasət yürüdən Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən birini türk xalqlarının birliyi, bu birliyin möhkəmləndirilməsi, əbədiliyi təşkil edir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində regional əməkdaşlıq, türkdilli dövlətlərin birliyinin iqtisadi əsasını qurmaq, türkdilli dövlətlər arasında mədəni və iqtisadi əməkdaşlığı genişləndirmək və strateji əhəmiyyətli iri layihələr həyata keçirmək prioritet istiqamətlərdəndir.**

Bu gün regionda söz sahibi olan, bütün layihələrin reallaşmasında mövqeyi əsas götürülən Azərbaycan dünyada sülhün, təhlükəsizliyin təminatçısı, eyni zamanda etibarlı tərəfdaş olaraq qəbul edilir. Eyni soy-kökə, dilə, dinə mənsub olan türk xalqları ilə daha doğma qardaşlıq, dostluq, qonşuluq münasibətləri quran, türk birliyinə, həmrəyliyinə töhfə verən ölkəmizi dini bir, dili bir olan Özbəkistanla tarixi əlaqələr birləşdirir. Belə ki, 2004-cü il martın 23-də Daşkənd şəhərində "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamə imzalanmış və həmin ilin may ayında Azərbaycan-Özbəkistan arasında hərtərəfli strateji tərəfdaşlığa təkan verəcək Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikasının tarixi dostluq münasibətlərinə əsaslanan və bərabərlik, qarşılıqlı etimad, strateji, o cümlədən hərtərəfli əməkdaşlıq və bir-birinin maraqlarına hörmət əsasında çoxtərəfli əlaqələrin inkişafına istiqamətlənmiş qanun iki qardaş ölkənin dostluğunun və strateji tərəfdaşlığının gücləndirilməsinə, regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət etmişdir.

**(davamı 7-ci səhifədə)**

# Tarixi əhəmiyyət kəsb edən səfər

(əvvəli 1-ci səhifədə)

Gündən-günə inkişaf edən əlaqələr iqtisadi əməkdaşlığı daha da dərinləşdirmiş, münasibətlərin daha yüksək səviyyəyə çatdırılmasına əlverişli şərait yaratmışdır. Siyasi, iqtisadi, elmi-texniki, humanitar, mədəni və digər sahələr üzrə inkişaf edən ikitərəfli əməkdaşlıq bu gün qarşılıqlı fəaliyyət, strateji tərəfdaşlıq fonunda özünün inkişaf dövrünü yaşayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-də Özbəkistan Respublikasına rəsmi səfərində məqsəd iki ölkə arasında münasibətlərin, əməkdaşlıq əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi, bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, müştərək layihələrin reallaşdırılması əsas məsələ olmuşdur. Daşkənddə ölkələr arasında mühüm sahələri əhatə edən 20-yə yaxın sənədin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatla çıxış edən dövlət başçıları - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ölkələr arasında uzun illərdən bəri mövcud olan ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərini yüksək qiymətləndirmişlər.

Özbəkistan Prezidenti xalqlarımızın eyni kökə malik olmasının əlaqələrin daha yüksək səviyyədə qurulmasında və uzun illərdir davam etdirilərək inkişafına nail olunmasında mühüm rol oynadığını bildirmişdir. Şavkat Mirziyoyev Azərbaycan liderinin ölkəsinə budəfəki səfərinin 25 il öncə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Özbəkistana birinci rəsmi səfəri ilə eyni günə düşdüyünü qeyd etmiş və özbək xalqının yaxın dostu olmuş dahi Heydər Əliyevə olan ehtiramını vurğulamışdır.

Geniş formatda ikitərəfli münasibətlərin müzakirə olunduğu görüşdə bütün istiqamətlər üzrə əlaqələrin inkişaf mərhələləri nəzərdən keçirilmiş və bundan sonra bu münasibətlərin daha da irəliləyərək strateji səviyyəyə çatdırılması istiqamətində müzakirələr aparılmışdır. Görüşdə hökumətlərarası komissiyaların sədrləri və həmsədrlərinin hər ay fikir mübadiləsi aparacaqları, başlanğıc mərhələdə həmsədrlərin ayda bir dəfə görüşəcəkləri qərara alınmış, ikitərəfli münasibətlərin yüksək səviyyəyə qaldırılmasının və bu istiqamətdə real nəticələrin əldə olunmasının vacibliyi qeyd edilmişdir.

Özbəkistanın hökumət başçısı ümumi səylər nəticəsində iki ölkə arasında ticari-iqtisadi, parlamentlərarası, mədəni-humanitar və regionlararası əməkdaşlığın fəallaşdığını və əhatəli xarakter aldığını diqqətə çatdırmış, Azərbaycan və özbək xalqlarının mənafeyi naminə qarşılıqlı fəaliyyətin bundan sonra daha da möhkəmləndirilməsi üçün ölkəsinin hazır olduğunu bəyan etmişdir.

Qarşılıqlı fəaliyyətin əsas istiqamətlərinin müəyyən edildiyi görüşdə imzalanan strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə hərtərəfli əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb edir.

Bu barədə fikir bildirən Özbəkistan prezidenti bir çox istiqamətlərdə, əsasən də iqtisadiyyatın bütün sahələrində geniş əhatəli layihələrin inkişaf etdiriləcəyini demiş və bunun üçün hər iki ölkənin iqtisadiyyatlarının geniş imkanlara malik olduğunu, bu günlərdə keçirilmiş biznesforumun yekunlarına əsasən yarım milyard dollardan artıq məbləğdə saziş və kontraktların imzalandığını bildirmişdir.

İkitərəfli münasibətlərdə ən mühüm prioritetin ticarət əlaqələrinin və sənaye kooperasiyasının genişləndirilməsi olduğunu deyən Şavkat Mirziyoyev qarşıdakı illərdə kooperasiya layihələrinin reallaşmasına xüsusi diqqət yetiriləcəyini nəzərə çatdırmışdır.

Münasibətlərin inkişaf etdirilməsi baxımından tarixi əhəmiyyətə malik olan görüşdə Hacıqabulda avtomobillərin birgə istehsalından, İpəkçilik sahəsində əməkdaşlığın inkişafından, avtomobilqayırma üzrə ölkələr arasında əldə edilmiş razılıqdan bəhs edilmiş, həmçinin, hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihə üzərində işlənildiyi və cari ildə birgə investisiya fondunun işə salınacağı qeyd olunmuşdur.

Mətbuat konfransında Özbəkistan lideri nəqliyyat kommunikasiyalarının inkişafına, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu ilə yük daşımaların həcminin artdığına diqqət çəkmiş və yeni dəhlizlərin inkişaf etdirilməsini, multimodal daşımaların artırılmasını məqsədəuyğun hesab etdiyini demişdir. O, ikitərəfli görüşdə kənd təsərrüfatı sahəsində daha sıx əməkdaşlığın, aqrosektorun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyətin investisiya layihələrinin və s. məsələlərin müzakirə edildiyini bildirmişdir.

İki ölkə başçısının beynəlxalq gündəliyin aktual məsələləri, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində gələcəkdə reallaşdırılacaq layihələr barədə fikir mübadiləsi apardığı, Birləşmiş Millətlər Təşkilatı və Türk Dövlətləri Təşkilatı, MDB, ATƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində dialoqun konstruktiv xarakteri və qarşılıqlı dəstəyin vacibliyi barədə mətbuata məlumat verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev xarici siyasətin prioritet istiqamətlərinin öz əksini tapdığı Strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında Bəyannamənin qlobal xarakter daşıdığını vurğulamış və onu iki ölkə arasında gələcək fəaliyyətin yol xəritəsi adlandırmışdır. Azərbaycanın dövlət başçısı ikitərəfli görüş zamanı müzakirə olunan məsələlərin reallaşmasının iki ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsinə, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etmişdir. Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı olduğunu deyən ölkə başçımız bu gün əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında əməkdaşlığın dərinləşməsi ilə bağlı layihələr barəsində əldə olunan razılaşmaların iki ölkə arasında daha geniş əməkdaşlıq əlaqələri yaratmaq üçün geniş imkanlar yaradacağını, hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığın əhəmiyyətini və səfər zamanı imzalanmış Siyasi Bəyannamənin münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatdıracağını qeyd etmişdir.

Görüş zamanı iqtisadi qarşılıqlı fəaliyyət, biznes strukturlarının əlaqələri, təhlükəsizlik, müdafiə sahəsinin inkişafı, xarici siyasətlə bağlı təşəbbüslər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi və s. mövzularda geniş fikir mübadiləsi aparan dövlət başçıları, həmçinin iki ölkə arasında mövcud olan tarixi dostluq, qardaşlıq əlaqələrindən, Azərbaycanın öz ərazi bütövlüyü uğrunda apardığı 44 günlük Vətən müharibəsində qardaş Özbəkistanın Azərbaycanın haqq işini dəstəklədiyindən və hər iki ölkədə həyata keçirilən islahatlar nəticəsində əldə olunan nailiyyətlərdən də bəhs olunmuşdur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**